

**Səxavət QARABAĞLI (Məmmədova)**

## SƏXAVƏT QARABAĞLININ SÖZ DÜNYASI

Səxavət Qarabağlı (Məmmədova) 1977 ci ildə Tərtər rayonunun Səhlabad kəndində anadan olmuşdur. 1993 - cü ildə köçkün düşənədək Ağdam rayonunun Şurabad kəndində yaşayaıb yaratmışdır. Məlum hadisələr nəticəsində dogma evini tərk etməyə məcbur qalanda ta uşaqlıq illərindən yazdığı bütün şeirləri itib. Səxavət xanım bu halı özü belə ifadə edir: " ... Şeirlərim evimizdə qaldı və bu bir körpənin xəyallarının paramparça olması demək idi. 2013 - cü ildə yenidən şeirlər yazmağa başladım... İndi ordumuzun şanlı qələbəsindən sonra daha xoşbəxtəm... Sanki həyatımın Ağdamda qırılıb qalan o hissəsindən gənclik çağlarımdan yaşamağa davam etməyə başlamışam..."

**TEZ GƏL**

Ömür viran olmadan,
Ürək talan olmadan,

Həyat yalan olmadan,
Tez gəl həyat çox qısa.
* * *
Susuz qalan bulağam,
Odu sönmüş ocağam,
Tikan üstdə qonağam,
Tez gəl həyat çox qısa.
* * *
Gələn yolunmu bağlı?.
Bu aşiq qəlbi dağlı,
Yoruldu Qarabağlı,
Tez gəl həyat çox qısa.

**KASIB MƏRD OLAR**

Kasıb süfrəsində halaldı çörək,
Süfrəni ürəklə açasan gərək,
Halal süfrələrin qonağı mələk,
Heç evdə görməsin zaval qonağı.
* * *
Nə qədər ucalsan hərdən başı əy,
Nə kasıbı incit, nə qəlbinə dəy,
Olsan da padşah, lap tutaq ki, bəy,
Xoş səda ver, çalış xoş al sorağı.
* * *

Səxavətin nədir axı qəzəbi?.
İstəmir var dövlət, istəmir dəbi,
Kasıb olsa əgər boş qalsa cibi,
Şan-şöhrəti onun halal olmağı...

**SAF QƏLBIM**

Saf qəlbim başıma bəla,
Bicliyim, fırıldağım yox.
Qəzəbim dağlar əridər,
Qəlbimin qəzəbindən qorx.
* * *
Ümidlər öləcək bir gün,
Məzarın olacaq ürək,
Oynama gəl saf qəlbimlə,
Sındırma, onsuzda kövrək.
* * *
İntizar dostu bu qadın,
Nə qoysun sevginin adın?
Haçandır yolda qoyduğun,
Gözlərin nurunu aldın...